# Şəmkirdə "Turizm Destinasiya Menecmenti Planı"nın təqdimatı keçirilib

**BMT-nin İnkişaf Proqramı (UNDP) və Dövlət Turizm Agentliyi tərəfindən birgə icra olunan "Azərbaycan regionlarında dayanıqlı turizmin inkişafına dəstək" layihəsi çərçivəsində qərb regionu üzrə "Turizm Destinasiyalarının (məkanlarının) İdarəetmə Planı"nın təqdimatı keçirilmişdir.**



Şəmkir Rayon İcra Hakimiyyətinin və Dövlət Turizm Agentliyi əməkdaşlarının, eyni zamanda ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə layihənin Şəmkir rayonu üzrə nəzərdə tutulan fəaliyyəti ilə bağlı müzakirələr aparılmışdır.

Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini - sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Rüfət Sahibsoy layihənin əhəmiyyətindən danışaraq bildirmişdir ki, hazırda Şəmkir rayonunda Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində turizm potensialının inkişaf etdirilməsi, yeni istirahət mərkəzlərinin yaradılması, mövcud infrastrukturun bərpası və yenidən qurulması istiqamətində işlər aparılır. Bu planın həyata keçirilməsi isə rayonda turizmin inkişafına daha da təkan verəcək.

Planın müzakirəsi zamanı Şəmkir rayonunun geniş turizm potensialının olduğu vurğulanmış, bu imkanların reallaşdırılması üçün turizm infrastrukturunun daha da gücləndirilməsi, yerli icmaların və sahibkarların turizm strategiyasının həyata keçirilməsində birbaşa iştirakının təmin olunmasının vacibliyi qeyd olunmuşdur.

Təqdimat mərasimində səsləndirilən təkliflərin, turizm infrastrukturunun yaradılması və inkişafı istiqamətində nəzərdə tutulan işlərin qərb regionu üzrə "Turizm Destinasiyalarının İdarəetmə Planı"nda nəzərə alınacağı diqqətə çatdırılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 13 avqust.- S.7.